Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

F. Köçərli adına
Respublika Uşaq Kitabxanası



# İslam Səfərli zirvəsi

**İslam Səfərlinin 95 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2018**

**Tərtibçilər:** **Aynurə Əliyeva**
**Sevil Əhmədova**

**Redaktor:** **Könül Ağazadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar Mədəniyyət işçisi*

**İslam Səfərli zirvəsi:** İslam Səfərlinin 95 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait /Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, F. Köçərli ad.Respublika Uşaq Kitabxanası; tərt.ed. A. Əliyeva; ixt.red. və burax.məsul Ş. Qəmbərova; red. K. Ağazadə. – Bakı: F. Köçərli ad.Respublika Uşaq Kitabxanası, 2018.-28 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2018**

## Tərtibçidən

Ziyalı timsalında el özünün zehni, mənəvi varlığının gerçəkliyini, öz ideallarının carçısını görür. Əsl ziyalılara həmişə ehtiram, qayğı bəsləyir, onlara güvənir. Müasir dünyada öz milli mövqeyini dərk etməkdə onlara hərəkətverici qüvvə kimi baxır. Ziyalı adını ləyaqətlə daşıyanlar isə elin etibarını, ümidini doğrultmağı müqəddəs borc sayırlar. Böyük insan, dramaturq nəğməkar şair, ictimai xadim İslam Səfərli onların önündə olan şəxsiyyətlərdəndir. Onun yaradıcılığı çoxşaxəlidir. Vətənin, xalqın, milli dəyərlərimizin, təbiət gözəlliklərinin, hətta gülün-çiçəyin belə tərənnümü şairin yaradıcılığında özünəməxsus yer tutur. Sənətdə sehrli nə varsa, intuisiyanın gözlənilməz kəşflərindən doğur. Kimin intiusiyası laldırsa, o nə sənətin dilini bilər, nə sənət dilində yaradar. El dilinin saf şeiriyyətinə sahib olanlar poeziyasını bir poeziya kimi başqalarına çatdırırlar. Yalnız sözün duruluğunda nəcib duyğuların işığı könül oxşayır. Sözdə hisslərinin, fikrin vəznini artırmaq istəyənlərin meyarı təbii sadəlikdir. Elə burada şairin sözünün sehrini, əfsunlayıcı təsirinin sirlərini görürük.

Bu il nəğməkar şair İslam Səfərlinin 95 illik yubileyi qeyd olunur. Şairin yubileyi münasibətilə işlədiyimiz bu vəsait iki hissədən ibarətdir. I hissə *"Pıçıldaşan ömürlər" adlanır*. Bu hissədə şairin həyat və yaradıcılığından bəhs edilir. İkinci hissə isə "*Ülviyyətin rübabı İslam Səfərli"* adlanır və şairin yaradıcılığı ilə bağlı keçirilə biləcək tədbirlərdən söhbət açılır.

## Yaradıcılığı

İslam Səfərli 12 fevral 1923-cü ildə Naxçıvan MSSR-in Babək rayonunun Şəkərabad kəndində dünyaya göz açmışdır. 1930-1937-ci illər Şəkərabad kənd yeddiillik məktəbi oxumuş, 1938-1941-ci illər Naxçıvan şəhər 1 saylı orta məktəbdə təhsilini davam etdirmişdi. 1941-ci il Böyük Vətən müharibəsi başlananda könüllü cəbhəyə getmişdi. 416-cı Azərbaycan Taqanroq diviziyasında kəşfiyyatçı olmuşdur. 1945-ci ildə ordudan tərxis olunması haqqında əmr verilmişdir.

1945-1946-cı illər "Şərq qapısı" qəzetində ədəbi işçi, Naxçıvan Radio Komitəsinin əməkdaşı, eyni zamanda "Azərbaycan gəncləri" qəzetinin xüsusi müxbiri olmuşdur. 1946-1951-ci illərdə Bakı Dövlət Universitetinin Filologiya fakültəsində təhsil almış, 1948-ci ildə ailə həyatı qurmuşdur. 1951-1952-ci illərdə "Ədəbiyyat" qəzetində incəsənət şöbəsinin müdiri, 1953-1959-cu illərdə isə Azərbaycan radio idarəsinin müxbiri, ədəbi dram şöbəsinin müdiri vəzifələrində işləmişdir. 1973-cü il 21 mart Azərbaycan SSR Ali Sovet Rəyasət Heyətinin fərmanı ilə "Əməkdar İncəsənət Xadimi" adına layiq görülmüşdür.

Müharibə illərində qələmə aldığı "Ordumuza ithaf", "Ədəbi gənclik", "Onüçlər", "Əmin ol ata!", "Qoşa söyüd", iki dəfə Sovet İttifaqı Qəhrəmanı, general-mayor Həzi Aslanovun əziz xatirəsinə həsr etdiyi "Təzə çiçəklər", "Üçüncü hərb istəmirik" və s. şeirləri onun hafizəsində buraxdığı dərin izlərin təsirindən yaranmışdır. Müharibə mövzusu gənc şairin poemalarında da öz əksini tapmışdır. "Sınaq gecəsi", "Çex qızının məhəbbəti", "Yaralı nəğmə", "Qığılcım", "Fırtınalar adası", "Dəfinə", "Ələsgər", "Birinci katib", "İnsan ləpiri", "İki bacı", "Qeyrət qapısı", "Abşeron yatağı" və s. bir-birindən maraqlı poemaları diqqət çəkmiş, yadda qalan olmuşdu.

İslam Səfərli dramaturq kimi də böyük uğurlar qazanmışdır. "Göz həkimi", "Ana ürəyi", "Yol ayrıcı", "Xeyir və Şər",

“Dədəgünəş əfsanəsi” və s. müxtəlif vaxtlarda, ayrı-ayrı bölgələrdə tamaşaya qoyulmuş, tamaşaçı rəğbəti qazanmışdır. İslam Səfərli oçerk, novella, libretto və kinossenari, məqalələr müəllifi kimi də tanınmışdır. Onun “İki könül bir olanda” (1947) balet-librettosu, “İki qardaş” (1950), “Badamlı kəndinin qızı” (1955) oçerkləri, “Şərqin qalibləri” (1960), “Bir stəkan çay” (1971) kinossenariləri, “Təzə qəsəbədə gülüş”, “Məzhəkli itki” (1973) novellaları və xeyli sayda məqalələri dövrünün nəbzini tutmaq baxımından çox əhəmiyyətlidir. İslam Səfərli tərcüməçilik fəaliyyəti ilə də məşğul olmuşdur. O, A.S.Puşkin, M.M.Svetlov, S.Marşak, M.Kərim, M.Tursunzadə, K.Koladze, Y.Dolmatovski və b. kimi tanınmış sənətkarların əsərlərindən müvəffəqiyyətlə tərcümələr etmişdir.

Şairin “Bakı, sabahın xeyir”, “Zərif gülüşlüm”, “Bir könül sındırmışam”, “Qonaq gəl bizə”, “Bakılı qız”, “Nə vaxta qaldı”, “Ana”, “Ay qaşı, gözü qara qız”, “Ağ xalatlı həkimlər”, “Gəncliyimi gəzirəm”, “Aylı gecələr” və s. bu kimi yüzlərlə mahnısı dillər əzbəri olmuş, klassikaya çevrilmiş və indinin özündə də sevilə-sevilə dinlənilir.

İslam Səfərlinin adını əbədiləşdirmək məqsədilə Xəzər dənizində üzən gəmilərin birinə “İslam Səfərli” adı verilib, Bakının mərkəzi küçələrindən biri şairin adını daşıyır, Bakıda yaşadığı binaya (Həsən Seyidbəyli, 30) onun barelyefi – xatirə lövhəsi vurulub.

İslam Səfərlinin 18 kitabı işıq üzü görüb. Şair 6 noyabr 1974-cü ildə uzun sürən xəstəlikdən sonra əbədiyyata qovuşub və Fəxri Xiyabanda dəfn olunub.

Görkəmli şairimiz İslam Səfərlinin anadan olmasının 95 illik yubileyi ilə əlaqədar olaraq, bir sıra tədbirlər; kitab müzakirəsi, oxucu konfransı, rəsm və şeir müsabiqəsi, ədəbi-bədii gecə keçirilə bilər. Bu şairi sevdirmək, yaradıcılığını gənc nəslə və şagirdlərə tanıtmaq və eyni zamanda oxucularda mütaliə

vərdişi aşılamaq məqsədi daşıyır. İslam Səfərlinin 95 illik yubileyi ilə əlaqədar kitabxanada kitab sərgisi keçirilməsi məqsədəuyğundur. Sərgiyə müxtəlif başlıqlar verilir: “Unudulmayan şair İslam Səfərli”, “Nəğmələrdə yaşayan şair ömrü”, “İslam Səfərli zirvəsi”, “Ədəbiyyata İslam Səfərli baxışı”, “Allı-güllü, şirin dilli qafiyəli qələm”, “Nəğmədən yaranan poeziya”, “Qəlbi Araz olan şair”, “Şairi xatırlayarkən”, “Həmişəyaşar şair İslam Səfərli”, “Təbiətə, gözəlliyə vurğun şair”, “Ülviyyətin rübabı İslam Səfərli”, “Mahnı yelkəninə çevrilən şair” və s. verilə bilər.

Bununla yanaşı şairin müxtəlif illərdə çəkilmiş şəkillərindən ibarət fotostendi və İslam Səfərlinin kitabları ilə birgə digər şairlərin İ. Səfərli haqqında dövri mətbuatda yazdığı materiallar sərgidə öz yerini alır. Görkəmli insanların şair haqqında söylədikləri sitatlar və şeir parçaları da sərgidə verilir.

# Kitab sərgisi












## Görkəmli şəxsiyyətlərin İslam Səfərli haqqında söylədikləri fikirlər:

İslam Səfərlinin poeziyasında Xəzərin ləpələri pıçıldaşır, müasir kəndin və şəhərin müxtəlif təbiətli adamları Vətən də, onun təbiəti də tərənnüm olunur. İslam Səfərlinin tərənnümündə tam bir poeziyadır, incədir, xəfifdir, gözəldir.

**Əkbər Ağayev,**
*professor*

Qardaşım əsl vətəndaş idi. Elin-obanın dərdini çəkmədən, dara düşənə, ehtiyacı olana kömək etməkdən zövq alardı.

**Hidayət Səfərli,**
*Əməkdar jurnalist*

İslam Səfərli Azərbaycan şeirinin Xəzər silsiləsini yaratmışdır. Onun şeirlərində Xəzərin özünəməxsus poetik obrazı canlandırılmışdır.

**İsa Həbibbəyli,**
*akademik*

İslam Səfərli yaradıcılığını oxuculara tanıtmaq və şair qələmini sevdirmək üçün kitabxanada keçiriləcək maraqlı tədbirlərdən biri şeir müsabiqəsidir. Kitabxanaçı əvvəlcədən məktəblərlə əlaqə saxlayaraq oxucuları kitabxanaya cəlb edir. Şagirdlərə şairin kitabları təqdim edilir. Şagirdlər müəyyən şeirlər seçərək iştirakçı qismində tədbirə hazırlaşırlar. Əvvəlcədən təyin olunmuş tədbirin vaxtı gəlib çatır. *"Allı-güllü, şirin dilli qafiyəli qələm"* adlı şeir müsabiqəsində münsiflər və qonaqlar öz yerini alırlar. İlk olaraq kitabxanaçı səhnəyə gələrək münsiflər və qonaqları salamlayır, iştirakçılara isə uğurlar arzulayır.

*Kitabxanaçı*: İslam Səfərli ədəbi zirvələrdən biridir. Onun haqqında çox yazılıb və bundan sonra da yazılacaqdır. İllər keçdikcə bu böyük beynəlmiləlçi şairə məxsus yeni insani keyfiyyətlər aşkar olunur. Gəlin biz də bu saflıqdan bəhrələnək Səfərli yaradıcılığının zirvəsinə iştirakçıların söyləyəcəyi şeirlərlə ucalaq...

*İştirakçıların çıxışından əvvəl İslam Səfərlinin şeirləri öz səsi ilə slayd şəklində tamaşaçılara təqdim olunur. Bundan sonra iştirakçılar şeirlərini söyləmək üçün səhnəyə yaxınlaşırlar.*

**I iştirakçı : Əziz ana**

Əziz ana, can ana,
Gözəl, mehriban ana!
Böyütdükcə bizi sən
Dən düşür saçlarına
Ömrün bənzər
Gülüstana.
Canım ana,
Gözüm ana!..

**II iştirakçı: Pıçıldaşın, ləpələr**

Pıçıldaşın, pıçıldaşın, ləpələr!
Bəlkə, mənə bir sözünüz var sizin?
Üç gecədir mənim ömür yoldaşım
Buruq qazır qucağında dənizin...

**III iştirakçı: Aynur**

Körpə quzum Aynurum,
Saçların burum-burum.
Al-əlvan geyinmisən,

Kuklanla deyinmisən,
Sən nə qəşəngsən, Aynur,
Solmaz çiçəksən, Aynur...

**IV iştirakçı:** **Naxçıvanım**

Çöllərindən keçən mənəm,
Söz qoşmamış keçəmmənəm,
Sularından içən mənəm,
Mənim barlı Naxçıvanım,
Xoş baharlı Naxçıvanım...

*Tədbirin sonunda münsiflər heyəti qalibləri müəyyənləşdirir. Sonra qaliblər və digər iştirakçılara mükafat verilir.*

İslam Səfərlinin yubileyi ilə əlaqədar bir neçə tədbirlər keçirilə bilər. Bu məqsədlə kitabxana səyyar xidmət göstərərək hər hansı məktəbdə onun sərgisini təşkil edə bilər. İslam Səfərli şeirlərini, əsasən, heca vəznində yazmışdır. Bu nöqteyi-nəzərdən "Heca vəznliyəm mən" adlı tədbirdə ədəbiyyat müəllimləri bu haqda və ümumilikdə şairin həyat və yaradıcılığı haqqında məlumat verir.
*Ədəbiyyat müəlliməsi:* XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən olan İslam Səfərli şeirlərini, əsasən, heca vəznində yazmış, hətta "Heca vəznliyəm mən" adlı ayrıca bir şeirində bu vəznə sədaqətini xüsusi vurğu ilə bəyan etmişdir. Şairə görə, Molla Pənah Vaqifin, Aşıq Ələsgərin Azərbaycan şeirinin "qoca vəzni" olan heca vəznində yazdıqları şeirlər əbədi olaraq qalan "el malı"na çevrilmişdir. İslam Səfərli həmin şeirlə ümumilikdə "Azərbaycan şeirinin ahəngi adlandırdığı" heca vəznli şeirin və bu vəzndə XX əsrdə dillər əzbəri olan poeziya nümunələrini yaratmış Səməd Vurğun məktəbi ənənəsinin əbədiliyinə inamını ifadə etmişdir. İslam

Səfərlinin ədəbi aləmdə ilk addımlarını atmasında və tanıdılmasında da xalq şairi Səməd Vurğunun böyük rolu olmuşdur. İslam Səfərlinin yazıçı dostu Azərbaycan Dövlət Universitetində onunla birlikdə təhsil almış Əlfi Qasımov xatirələrində deyirdi: "İslam Səfərlinin tələbəlik illərində yazdığı uğurlu şeirləri gənclərin böyük qayğıkeşi Səməd Vurğunun da diqqətini cəlb etmişdir... Üçüncü kursda oxuyurduq. Böyük şair tələbələrlə görüşə gəlmişdi. ...O, xitabət kürsüsünə qartal kimi sinə gərib, müasir poeziyamızın qarşısında duran vəzifələrdən danışdı... Səməd Vurğun nəyi isə xatırlayıb susdu. Zala göz gəzdirdi:

– Hanı o mənə oxşayan qara İslam?

– Buradayam, Səməd müəllim.

– Yazıçılar İttifaqında keçən "Gənclər Günü"ndə bir şeir oxudun ha, indi oxuya bilərsənmi onu?

...Səməd Vurğun kənara çəkildi. İslam xitabət kürsüsünə qalxıb, "Beşik başında" şeirini şövqlə oxudu. Alqış səsləri salonu titrətdi".

Özünəməxsus böyük istedad sahibi olan İslam Səfərli ustadı kimi qəbul etdiyi Səməd Vurğun məktəbi ənənələrinə yaradıcı münasibət bəsləmişdir. Əvvəla, o, mövcud şeir məktəbi məkanında oxşar motivlər üstündə yeni mənalar yaratmağı bacarmışdır. İkincisi, İslam Səfərli şeirlərində qələmə aldığı mövzuların, poetik məna verdiyi detalın "öz rəngini, boyasını" ifadə etməyə çalışmışdır. Üçüncüsü, İslam Səfərli şeirlərinə qanadlı, uca fikirlərdən çox dərin bir insani səmimiyyət gətirməyi zəruri saymışdır. Şair bu qənaətə gəlmişdi: "Bil ki, o adamdan sənətkar olmaz, əgər ürəyinə arxalanmasa". Ədəbiyyatşünaslıqda da İslam Səfərlinin şeirlərində ictimai motivlərdən çox təbiiliyi, səmimiyyəti, duyğu və düşüncələri lirikanı ön mövqeyə çəkməsi diqqəti cəlb etmişdir. Fikrimizcə, şeir kitablarından birini "Həyatın nəfəsi" adlandırması da

təsadüfi olmayıb, İslam Səfərlinin yaradıcılığında gedən proseslərin real nəticəsidir. Həmin yaradıcılıq proseslərinin, yəni romantik pafosdan təbii lirikaya doğru inkişaf edən meyillərin sayəsində İslam Səfərlinin şeirlərində tədricən ümumi şəkildə ifadə olunan tərənnümü obrazlı düşüncələr əvəz etmişdir. Doğrusu, o daha çox tərənnümlə obrazlı düşüncəni, lirizmi çarpazlaşdırmağa üstünlük vermişdir. Buna görə də İslam Səfərlinin şeirlərində tərənnüm meyilləri ilə yanaşı, düşüncə faktoru və obrazlı söz demək səyləri qüvvətlənmişdir:

Bakı – şəhərim mənim,
Xəzər – bulağım mənim,
Dağlar – hünərim mənim,
Günəş – bayrağım mənim,
Dünyada nə qəmim var.

"Üçüncü hərb istəmirik" şeiri nəğməkar şair kimi tanınan İslam Səfərlinin cəmiyyət məsələlərinə münasibətdə də, bəşəri mövzulardan söz açanda da dərin ictimai mətləbləri lirik tərzdə ifadə etmək səviyyəsində geniş dünyagörüşə malik olduğunu göstərən əhəmiyyətli bir sənət nümunəsidir. Aktuallığını bu gün də qoruyub saxlayan "Üçüncü hərb istəmirik" şeiri bütövlükdə müharibə əleyhinə yazılmış himn kimi səslənir:

Birincidə
Ağır həyat sürmüşük biz.
İkincidə
Min bir dəhşət görmüşük biz.
Biz palıdıq,
İndi daha tunc olmuşuq.
Biz poladıq.
Üçüncü hərb
İstəmirik!
İstəmirik!

İslam Səfərlinin yubileyi ilə bağlı kitabxanada keçirilən tədbirlərdən biri də “Biblioqrafik icmal”dır. Kitabxanaçı biblioqrafik icmal keçirərkən oxuculara ədibin kitabları haqqında məlumat verir.

*Kitabxanaçı:* Hər bir sənətkar öz yaradıcılığı ilə özünə abidə qoyur. Əlbəttə, qranitdən və mərmərdən daha çox xatirələrdə, yaddaşlarda bu abidəni yaradır. Ürəklərimizdə yaranan belə abidələrdən biri də İslam Səfərli abidəsidir. O, cəmi 52 il yaşadı. Fevralda dünyaya gəldi, noyabrda – soyuq payız günlərinin birində dünyadan köçdü. Lakin ömrünün uzun və qısalığı əsas şərt deyil, elə 52 illik bir ömür də bir insanı yaddaşlarda yaşatmaq üçün kifayət edər. İslam Səfərli 1974-cü ildə vəfat edib, ancaq onu vəfatından keçən bu illər ərzində həmişə xatırlanıb. Yurdun hər bir guşəsində “İslam Səfərli” adı gələndə onu təbəssümlə yada salırlar. Bu təbəssüm İslam Səfərlinin sənətkar ömrünün yaşantılarıdır ki, üzlərə, gözlərə çilənib. Onu yaddaşlara daim həkk edən onun şəxsiyyəti ilə birgə onun ölməz əsərləridir.

Görkəmli Azərbaycan şairi İslam Səfərli şeirləri, mahnıları dillər əzbəri olan sənətkarlardandır. Şairin sevilən kitablarından biri olan “Adsız zirvə” şeirlər və poemalar toplusudur. Onlarda vətənə, yüksək vətəndaşlıq qüruru, doğma yurdun füsunkar təbiətinin gözəlliklərinə heyranlıq duyğuları, saf məhəbbət, dostluq tərənnüm olunur.

Sülh-həyatın mənası,
Anaların laylası,
Körpələrin səsidir.
Sülh-ağsaçlı dünyanın,
Milyon-milyon insanın
Həqiqət nəğməsidir...

İslam Səfərlinin “Göz həkimi” kitabına “Göz həkimi”, “Ana ürəyi”, “Yol ayrıcı” povestləri daxil edilmişdir. Bu əsərlərdə insanları düşündürən problemlər, köhnəliyə qarşı barışmazlıq, mübarizlik, yenilik hissi ilk baxışdan diqqəti cəlb edir. Elə buna görədir ki, həmin əsərlər uzun müddət dram teatrlarının repertuarlarından düşməmiş, müvəffəqiyyətlə oynanılmışdır. İslam Səfərlinin “Ağ şanı, qara şanı” kitabında şairin müxtəlif illərdə yazdığı şeir və poemalarından nümunələr toplanmışdır.

İslam Səfərlinin “Seçilmiş əsərləri”ndə nəğməkar şairin poetik yaradıcılığının bəlli bir qismi toplanmışdır. Bu şeirlər şairin ürəyinin dərinliklərindən qopan duyğuları parlaq əks etdirir. İslam Səfərlinin hər zamankı səmimi şeirlərində sözlər sanki adilikdən çıxır, poetik hüsn qazanır. Burada Xəzərin ləpələri pıçıldaşır. Burada Vətən də, onun təbiəti də tam bir poeziyadır, zərifdir və gözəldir. Odur ki, həmin sözlərə neçə-neçə mahnılar yazılıb və onların bir çoxu ədəbiyaşardır. Lirik duyğular şairinin sözlərinə bəstələnmiş o nəğmələri bəzəyən şeiriyyət-şirinlik, axıcılıq və poetik gözəllik bütövlükdə bu kitabdakı şeirlərə xas olan cəhətdir. Şairin “Pıçıldaşın Ləpələr” adlı kitabının forzasında şairin oğlu İlham Səfərlinin “Bakı sabahın xeyir!” adlı əsərindən istifadə edilmişdir. Bütün bunlarla yanaşı, İslam Səfərlinin 1965-ci ildə nəşr olunan “Qoşa söyüd” kitabı, 1967-ci ildə nəşr olunan “Torpağın ətri”, 1973-cü ildə “Seçilmiş əsərləri” və 1978-ci ildə çap olunan “Əbədi beşik” kitabları oxucular tərəfindən sevinclə qarşılanmışdır.

*Tədbirin sonunda iştirakçılar İslam Səfərlinin şeirlərindən parçalar söyləyirlər.*

Kitabxanada İslam Səfərlinin kitablarından ibarət sərgi təşkil olunur. Kitabxanaçı sərginin ətrafında “Mahnıdır yelkənim əzəldən mənim” adlı *oxucularla söhbət* keçirir. Söhbət zamanı

kitabxanaçı yazıçının özü və kitabları haqqında oxuculara məlumat verir.
*Kitabxanaçı:* İslam Səfərli Azərbaycan poeziyasında həm də Naxçıvan şeir silsiləsinin görkəmli yaradıcısı kimi qəbul olunur. Tərəddüd etmədən demək olar ki, son yarım əsrdən artıq dövrdə ayrı-ayrı şairlər tərəfindən Naxçıvan mövzusunda bir neçə fərqli uğurlu bədii nümunənin yaradılmasına baxmayaraq, şeirimizdə Naxçıvan silsiləsinin yaradılmasında İslam Səfərli birinciliyi və ən uca zirvəni fəth etmiş sənətkar olaraq qalır. İslam Səfərlinin Naxçıvan mövzusunda yazılmış iyirmidən çox şeirində Azərbaycanın ayrılmaz parçası olan bu ecazkar yurdun özünəməxsusluqları bütün incəlikləri və dərin mənaları ilə yüksək poetik səviyyədə, orijinal bədii vasitələrlə əks etdirilmişdir. İslam Səfərli üçün ata-baba yurdu Naxçıvan ilk dəfə rübabını kökləməyə başladığı, ona ilham bəxş etmiş Nəqşi-Cahandır. Şair bütün ruhu ilə bu torpağa bağlıdır, ömrü boyu bu torpaqda kəsdiyi duz-çörəkdən qüvvət almışdır. Naxçıvanın Azərbaycanın tarixində və taleyindəki yeri və mövqeyi, diyarın yetirmələrinin xidmətləri, bu coğrafiyanın insanlarının "düz ilqarlı" möhkəm mənəvi dəyərləri, "od çaxarlı" təbiəti İslam Səfərlinin Naxçıvannaməsində bütün təbiiliyi və daşıdığı mənaları ilə bir yerdə ilhamla vəsf olunmuşdur. Fikrimizcə, İslam Səfərlinin yarım əsr bundan əvvəl yazılmış "Naxçıvanım" şeiri Azərbaycan şeirinin Naxçıvannaməsinin dəyirman daşı olaraq "işini" davam etdirir. Hətta həmin mövzuda yazılmış ən yaxşı şeirlər də bu dəyirman daşının pəri ətrafında fırlanmaqdadır. Hələ ki, şeirimiz Xəzər mövzusunda olduğu kimi, Naxçıvan mövzusunda da İslam Səfərli zirvəsini aşa bilməmişdir. Bütün bunlara görə, İslam Səfərlinin "Naxçıvanım" şeiri Azərbaycan şeirində Naxçıvanın poetik pasportu olaraq yaşayır.

İslam Səfərlinin Naxçıvan silsiləsində qayalarda "daş cığırlar açan" Qızlar bulağı, hər kərpicində tariximizin sözü yazılan qədim Gilan şəhəri, Narzan suyu kimi qiymətli olan Badamlı, "aran meşəsi" Xalxal, "almaz dalğalı, gümüş ləpəli" Araz çayı, Göy tarlalı Şərur, dalğalarla qucaqlaşan Arpaçay, qayaların zirvəsində dayanan, özü daş, heykəli daş olan – "Gəlin daş" "böyük aləm" sandığı doğulduğu Şəkərabad kəndi tam mahiyyəti və təbiəti ilə şeirə gətirilmişdir. Bu şeirlərdəki təbiilik və dərinlik həmin yerlərin hər birinin adını, mənasını, görünüşünü, dəyərini şeirin dili ilə real və obrazlı şəkildə ifadə etməyə imkan yaratmışdır. Fikrimizcə, "Naxçıvanın duzu, qızı, yarpızı" ifadələri də İslam Səfərlinin eyniadlı şeirindən sonra zərbi-məsələ çevrilmişdir. Arazüstü diyarın Şərur adlı elini də vəsf edən İslam Səfərlinin "Azərbaycan torpağının bərəkətli guşəsi", "Şərqin polad qapısında" ölkəmizin səsi kimi mənalandırdığı bu diyar haqqındakı "Naxçıvanın Şəruru var, Şərurun da qüruru var" misraları ümumiləşmiş müdrik kəlamlardır. Məşhur mərcan gözlü Batabat yaylağı haqqında da ən əlçatmaz şeir İslam Səfərli tərəfindən yazılmışdır. Bu, Batabat haqqında şeirdən çox, şeirdə Batabatın özüdür:

Bulaqların bir səmtədir axarı,
Salvartının xoş görünür baxarı,
Biçənəkdən at səyirdib yuxarı
Yalmanına yata-yata gəlmişəm,
Mərcan gözlü Batabata gəlmişəm.

Naxçıvan torpağının vurğunu olan İslam Səfərlinin bu mövzuda yazılmış şeirləri sırasında "Naxçıvan yadigarı"nın xüsusi yeri vardır. "Naxçıvan yadigarı" adlı mənzərələr silsiləsinin dahi yaradıcısı Bəhruz Kəngərliyə həsr olunmuş bu şeirlə İslam Səfərli özü də doğma diyar haqqında mənalı bir şeir

tablosu yaratmışdır. “Naxçıvan yadigarı” şeirində o, geniş mənada Naxçıvan diyarının ümumiləşmiş poetik panoramını rəsm etməyə müvəffəq olmuşdur. Bu şeir həm də İslam Səfərlinin şair-rəssam kimi də böyük istedadını meydana qoyur. Fikrimizcə, “Nə vaxta qaldı” şeiri də İslam Səfərlinin Naxçıvan şeirləri silsiləsinə aid edilməlidir. Şeirdə təsvir olunan bağlı-bağatlı, eyvanlı həyət İslam Səfərlinin Naxçıvan şəhəri yaxınlığında doğulub boya-başa çatdığı Şəkərabad kəndindəki ata-baba ocağının təsviridir. Şair “Döyüşçünün xəyalı” şeirində müharibə illərində arxa cəbhəni düşündükcə xəyalən evlərindəki “çiçəkli eyvanı” xatırladığını nəzərə çarpdırmışdır. Hətta bu şeirdə “Nə vaxta qaldı” mahnısındakı tərənnüm olunan ilk sevginin də izlərini görmək mümkündür. Döyüşçü-şair öz şeirində “çiçəkli eyvan” la yanaşı, xəyallarında yaşatdığı “o bir cüt ilahi, mavi gözləri” də həsrətlə yad etmişdir. Həmin “çiçəkli eyvan” İslam Səfərli sonralar “Təhsil illəri” şeirində də “yadıma düşdükcə hərdən kəndimiz, üzü günə baxan aynabəndimiz” şəklində xatırlatmaqla bu detalın onun poetik yaddaşında möhkəm iz saldığını bir daha nəzərə çarpdırmışdır. “Nə vaxta qaldı” şeirində “Hər axşam tarladan qayıdanda biz” misrasında ifadə olunan romantik anlar, “Yol üstdəki qovaq” detalı da şairin gənclik illərində Şəkərabad kəndində ikən olan müşahidələrinin təəssüratlarıdır. Ona görə də “Nə vaxta qaldı”, bəlkə də, İslam Səfərlinin tərcümeyi-hal şeirlərindən biridir. Şeirin də, eyni adlı mahnının da çox təsirli və təbii alınması bu bədii nümunənin yaşanmış duyğu və düşüncələrin işığında meydana çıxdığını düşünməyə əsas verir:

Gilənar qızardı, ağ tut sovuşdu,
Payını dərmədim, budaqda qaldı.
Hamı könül verib yara qovuşdu,
Bəs bizim toyumuz nə vaxta qaldı?

Bütövlükdə İslam Səfərli ana Vətənin hər qarışını ürəkdən sevmiş, Vətən mülkünün cazibədar poetik panoramını yaratmaq yollarında ilhamla qələm çalmışdır. Şairin yaradıcılığında ölkəmizin ayrı-ayrı guşələrindən hər birinin mahiyyətini açan, mənasını, gözəlliyini, funksiyasını təqdim edən şeir çələngi formalaşmışdır. İslam Səfərli "Dəlidağın ətəyində göz açan, Kəlbəcərdə ləpir salıb iz açan" İstisunu, Bakının "Döşündə bir nişan kimi" parlayan Abşeronu, "Kərpici xallı qalın divarlardan hörülmüş" Gəncəni, "Fateh İskəndəri kəməndə salmış" Bərdəni, "Abşeronun gözlərində bir sürmə", "atəşgahlar yeri" Suraxanını, "Meyvəsi ulduz sanır" Qubanı, Muğanı "al qumaşa bürüyən" Mingəçevir dənizini, "meşəli sahilləri" Nabranı heç bir şairə bənzəmədən böyük ilhamla tərənnüm etmişdir. Şairin "Bilgəh bağları" şeirində görkəmli fırça ustaları Səttar Bəhlulzadənin, Tahir Salahovun Abşeron rəsmləri ilə yanaşı, dayana bilən şairanə lövhələr vardır. İslam Səfərli Azərbaycan torpağının nəğməkarı, Naxçıvanın vurğunu, Xəzərin Məcnunu idi.

Azərbaycan poeziyasında sözlərinə ən çox mahnılar bəstələnmiş şairlərdən biri də İslam Səfərlidir. İslam Səfərlinin şeirlərinin böyük əksəriyyəti poetik və ahəngdardır, musiqiyə yatımlıdır. Musiqi, mahnı İslam Səfərlinin şeirlərinin ritmində, ahəngində çağlayır. Azərbaycanın görkəmli bəstəkarları – Niyazi, Cahangir Cahangirov, Tofiq Quliyev, Arif Məlikov, Səid Rüstəmov, Şəfiqə Axundova, Ramiz Mirişli, Emin Sabitoğlu, Nəriman Məmmədov, Tamilla Məmmədzadə və başqaları İslam Səfərlinin şeirlərinə yaddaqalan mahnılar bəstələmişlər. Şairin bir çox mahnıları Azərbaycan musiqi mədəniyyətinin, mahnı xəzinəmizin Qızıl fondunu təşkil edən əsərlərin sırasındadır. Analar haqqında çoxlu şeirlər və mahnılar yazılsa da, İslam Səfərlinin sözlərinə görkəmli bəstəkar Cahangir Cahangirovun yazdığı "Ana" mahnısı böyük müğənni

Rəşid Behbudovun ifasında anaların laylası qədər həzin və mənalı səslənir:

Gözümün nuru, canım ana,
Böyütdün sən bizi yana-yana.
Odlusan gün kimi, bir qaynar həyat kimi,
Borcluyam mən sənə, sənə bir övlad kimi.

İslam Səfərlinin "Bulud göydən lal keçər", "Ay qaşı-gözü, qara qız", "Qənd bala, nabat bala", "Bağçamıza gəldi bahar" mahnıları axıcılığı, oynaqlığı və xəlqiliyinə görə xalq mahnısı təəssüratı yaradır. "Həkim qız" hələ də ağxalatlı həkimlərimizin sevimli peşə mahnısıdır. Bu vaxtadək "Aqronom oğlan" mahnısının da əvəzi yaranmayıb. İslam Səfərlinin mahnıları artıq bir neçə nəsil müğənnilərin ifasında səslənməkdədir. Azərbaycanın görkəmli müğənnilərindən Rəşid Behbudov, Şövkət Ələkbərova, Rübabə Muradova, Yalçın Rzazadə, Abdulla Babayev və başqaları İslam Səfərlinin mahnılarının populyarlaşmasında mühüm rol oynamışlar.

Janr baxımından şeirlərini ənənəvi poetik formalarının yaradıcı şəkildə davam etdirilməsi əsasında yazmış İslam Səfərlinin yaradıcılığında qoşma və gəraylılar çoxluq təşkil edir. Şairin "Gəlmişəm", "Qalıbdır", "Qonağıyam", "Dağlar" və sair şeirləri qoşma janrının yüksək tələblərinə tam cavab verir. Şairin "Görüşəndə", "Gəlin daş", "Mingəçevir dənizində", "Bir olanda" şeirləri yeni dövr Azərbaycan gəraylısının yaxşı nümunələridir. Qoşma və gəraylı formasında yazılmış poetik nümunələr İslam Səfərlinin şeirlərində xəlqilik düşüncəsini daha da dərinləşdirmişdir

İslam Səfərlinin bir çox şeirləri ballada janrının ən yaxşı nümunələri sayıla bilər. "Gilan şəhəri haqqında ballada" dan başqa, şairin "İtkin şahin", "Bayram töhfəsi", "Ömür yolları",

“Onüçlər”, “İlin son gecəsi” və sair şeirləri də ballada janrında yazılmışdır. Xüsusən, onun Böyük Vətən müharibəsi mövzusunda yazdığı ballada tipli şeirlərində akademik Bəkir Nəbiyevin yazdığı kimi, “Vətən uğrunda vuruşmaq əzmi, döyüşən gəncliyin nəfəsi, silah dostlarını vuruşlara təşviq etmək ehtirası güclüdür”. Mahnı mətnləri yaradıcılığında isə İslam Səfərli lirizmin daha qüvvətli olduğu janrlara üstünlük vermişdir. Əgər İslam Səfərlinin “Aynur” şeirinə musiqi bəstələnməsəydi də, mahnı kimi səslənə bilərdi. Eyni sözləri “Bulud göydən lay keçər” və “Xəzər romansı” kimi romans janrında yazılmış şeirlər haqqında da demək olar. Bu şeirlər bəstəkar tərəfindən deyil, şairin özü tərəfindən romans adlandırılmışdır. Şair sanki həmin şeirlərin musiqisini də hiss etmiş, notunu da müəyyənləşdirmişdir. Fikrimizcə, İslam Səfərli təkcə nəğməkar deyil, həm də bəstəkar şairdir. Bəstəkarlarımız onun şeirlərinə mahnı bəstələməkdə xüsusi bir çətinlik çəkməmişlər. Bu şeirlərin bətnində, cövhərində lirik bir mahnı çağlayır.

Azərbaycan poeziyasında vəznli sərbəst şeirlərin yaradılmasında İslam Səfərlinin böyük xidmətləri vardır. Onun “Azərbaycanım”, “Üçüncü hərb istəmirik” şeirləri ahəngi, qafiyələndirmə sisteminə görə sərbəst şeirdən çox heca vəzninə uyğundur. “Səslər zirvəsi”, “Oxu, Rəşidim, oxu!”, “Meşəli sahillər” İslam Səfərliyə məxsus vəznli sərbəst şeirlərdir. Dünya şöhrətli sənətkarlar Qara Qarayevə həsr olunmuş “Səslər zirvəsi”, Rəşid Behbudov haqqında yazılmış “Oxu, Rəşidim, oxu!” şeirlərində bu böyük şəxsiyyətlərin sənətinin fərdi xüsusiyyətlərini əks etdirən ritmdən, səciyyəvi ifadələrdən yaradıcılıqla istifadə olunmuş, hətta səslərin seçilməsinə də xüsusi diqqət yetirilmişdir.

İslam Səfərlinin vəznli sərbəst şeirləri heca vəzni daxilində müəyyən sərbəstliyə imkan yaradan poetik nümunələrdir. Bu

isə öz növbəsində onun heca vəznli şeirdə formal tələblər naminə artıq sözlər işlətməkdən qaça bilməsinə, fikri, obrazı bir qədər də sərbəst ifadə etməsinə meydan açmışdır. İslam Səfərlinin yaşayıb-yaratdığı dövrdə vəznli sərbəst şeir Azərbaycan şeirinin yeni bir hadisəsi idi. Bu mənada, İslam Səfərli XX əsr Azərbaycan vəznli sərbəst şeirinin əsas yaradıcılarından biridir. Bütövlükdə İslam Səfərlinin şeir yaradıcılığı fikirlə, məna ilə obrazlı bədii sözün üzvi vəhdətindən, sintezindən yoğrulmuşdur. "Bakı bir Bakıdır ki" şeirindəki təşbehlər Azərbaycan poeziyasında tamamilə yenidir:

Toranlıqlar içindən
Dan yeri ucub gəlir
Tənha qağayı kimi.
Dalğalar qalxıb-enir.
Yarımı yola salan
Bir qızın əlindəki
İpək kəlağay kimi.
...Sahil boyu işıqlar
Dənizin sinəsində
Gülür silsilə kimi.
Qoca Nargin görünür
Mavi göz içindəki
Qara bir gilə kimi.

İslam Səfərlinin 95 illik yubileyi ilə əlaqədar olaraq, keçirilən maraqlı tədbirlərdən biri də *"Əsrin son gününə bərabər gedək"* adlı ədəbi-bədii gecədir. Gecədə Azərbaycanın görkəmli ədibləri; şair və yazıçılar, bəstəkar və müğənnilər, oxucular, məktəblilər və ümumilikdə şeirə-sözə dəyər verənlər toplaşır. Qonaqlar şairin şəkilləri, müxtəlif adda əsər başlıqları və şeir misraları yazılmış çərçivərələrlə bəzədilmiş zalda öz yerlərini

alırlar. Gecənin əvvəlində tədbir iştirakçılarına İslam Səfərlinin həyat və yaradıcılığından bəhs edən slayd təqdim olunur. Daha sonra Niyazinin şairin sözlərinə bəstələdiyi "Vətən nəğməsi" adlı mahnının sədaları altında aparıcılar səhnəyə yaxınlaşır.

*I aparıcı:* Yaşaram arzularda,
Bu nazəndə baharda.
Nə çovğunda, nə qarda
Qərq olmaram sularda,
Nəğmədən yelkənim var.
Yer üzündə biz gərək
Ömr edib dövran sürək,
Hələ cavandır ürək...
Azərbaycan eli tək
Əbədi gülşənim var...

*II aparıcı:* Salam, dəyərli qonaqlar, İslam Səfərli sevərlər, şeirə vurğun oxucular, bu gözəl şeirli, nəğməli tədbirə xoş gəlmisiniz. Şeir həyatiliyi sevir. Realizm şeirin canıdır. İslam Səfərli öz kitabında bu prinsipə əməl etməyə çalışmışdır.

Qırçın-qırçın göy ləpələr,
Nə xəfifdir, nə incədir,
Onu şeirə çəkmək olmaz,
O ən zərif düşüncədir.

50-60-cı illərin poeziyasında İslam Səfərlinin bir şair kimi öz yeri, öz mevqeyi vardır. O, öz şair adını və şəxsiyyətini şeirlərində tam ifadə etmişdi. Onun gözəl, lirik şeirləri ilə yanaşı, "Sınaq gecəsi", "Yaralı nəğmə", "Birinci kitab", "Dəfinə" və s. poemalarıda olmuşdur. Onun yaradıcılığında baş mövzu, şübhəsiz ki, Azərbaycan idi. Bu mövzuya yazdığı

şeirlərin bir çoxu ola bilsin ki, indiki ədəbi meyar və ölçülərlə yanaşsaq, bir qədər zərif və solğun təsir bağışlasın, amma bütünlükdə bu şeirlərin hamısına xas olan bu cəhəti xüsusi vurğulamaq lazımdır ki, o da səmimiyyət idi. Şeirlərinin birində yazırdı: “Bağrıma basmışam Azərbaycanı. Araz bir qolumdur-Kür bir qolumdur”.

Sinən bir ağ gümüşdü, gümüşdü,
Gözüm könlünə düşdü, nə düşdü,
Sahilində işıqlar qızıldı,
Yel dəydi, göy köynəyin sızıldı,
Suların çin-çin oldu, Xəzərim,
Ləpən göyərçin oldu, Xəzərim...

*I aparıcı:* Dramaturgiya ilə də ardıcıl məşğul olan və “Dar ağacı”, “Ana ürəyi”, “Yol ayrıcında”, “Yadigar”, “Xeyir və şər” dramlarını, “Qayın arvadı, xayın arvadı” komediyasını və bir çox radiopyeslər yazmış İslam Səfərli bu sahədə də özünəməxsus iz buraxmışdır. Xüsusən, İslam Səfərlinin “Göz həkimi” pyesi uzun müddət Azərbaycan teatrlarının repertuarında mühüm yer tutumuş, müəllifinə ədəbiyyat və mədəniyyət aləmində böyük nüfuz qazandırmışdır. “Göz həkimi” dramı XX əsrin ikinci yarısı Azərbaycan dramaturgiyasının qiymətli nümunələrindən biridir. Öz dövrü üçün aktual səslənən “Göz həkimi” pyesi güclü müasirlik imkanlarına malik olan əsər kimi yeni epoxada da əhəmiyyətini saxlayır.
*II aparıcı:* İslam Səfərli əsl vətəndaş idi, vətənpərvər, yurdunu sevən idi. Azərbaycanı canından da çox sevən şair Qarabağı Azərbaycanın tacı hesab edirdi:

Mənim də boş yerə sözüm olmayıb,
qəlbinə dəymədim
əsla bir kəsin.
Özgə torpağında gözüm olmayıb,
Ana torpağıma göz dikilməsin!
Əmr et! Keşiyində mətin dayanım,
Sənə nənəm qurban, Azərbaycanım!

İ. Səfərlinin illər əvvəl qələmə aldığı şeir elə bil bu gün yazılıb. Sanki naxələf qonşularımızın son 20 ildə şəhər və kəndlərimizi viran qoymasına, körpələri və qocaları min bir işgəncə ilə qətlə yetirməsinə şairin nifrətini, doğma Azərbaycana sevgisini ifadə edir.

Üzümə söykəyib öpdüm torpağı,
Mənə şoran yerdə bənövşə verdi.
Gur bir kəhriz atıb, suvardım bağı,
Qolunu çətirtək üstümə gərdi.

İslam Səfərli çox erkən getdi. Amma bu işıqlı dünyada bir şair kimi də, bir insan kimi də öz izini və özünə məxsus imzasını qoyub getdi. Onun bu misraları bir daha təsdiq edir ki, şairlər ölmür, onların ölümü cismanidir, mənəvi həyatları isə həmişə davam edir:

Günlər keçir birəm-birəm,
Bir uğurlu yol gedirəm.
Yurdumuzu vəsf edirəm
Əldə qələm, dizdə varaq,
Mənə qalan bu olacaq.

## Ədəbiyyat siyahısı

### Əsərləri
***Latın qrafikası ilə***

Seçilmiş əsərləri : Poeziya. - Bakı : Lider nəşriyyatı, 2005. - 223 s. - (Müasir Azərbaycan ədəbiyyatı).

Pıçıldaşın, ləpələr : seçilmiş əsərləri. - Bakı : Renessans, 2013. - 570 s. : foto, il. - + 1 el. opt. disk (CD-DA). - (qalın cildli)

***Dövri mətbuatda***

Ana dilim // Göy qurşağı. - 2008. - № 2. - S. 13.

Sənə qurban canım, Azərbaycanım! ; Zirvə yolu ; Qayğı // Ədəbiyyat qəzeti. - 2013. - 16 avqust. - № 30. - S. 1, 5. ; Savalan. - 2013. - 8-10 oktyabr. - № 74. - S. 2.

### Əsərləri
***Kiril qrafikası ilə***

Seçilmiş əsərləri : şeirlər və poemalar. - Bakı : Azərnəşr, 1973. - 270, [1] s.

Adsız zirvə : şeirlər və poemalar . - Bakı : Yazıçı, 1986. - 231 s.

Ağ şanı, qara şanı : şeirlər və poemalar. - Bakı : Gənclik, 1976. - 144 s.

Dan ulduzu, bir də mən... : mahnılar, şeirlər və poemalar. - Bakı : Gənclik, 1974. - 131 s.

Əbədi beşik : şeirlər və poemalar. - Bakı : Yazıçı, 1978. - 225, [1] s.

Göz həkimi : pyeslər. - Bakı : Yazıçı, 1980. - 175 s.

Qoşa söyüd : şeirlər və poemalar . - Bakı : Azərnəşr, 1965. - 173 s.

Meşə yolu : şeirlər və nəğmələr. - Bakı : Uşaqgəncnəşr, 1960. - 60 s.

Torpağın ətri : şeirlər və poemalar. - Bakı : Gənclik, 1967. - 144 s.

**Kitablarda**

Göz həkimi : beş pərdəli on şəkilli pyes // Azərbaycan dramaturgiyası antologiyası. - Bakı : Şərq-Qərb, 2007. – C.V. - S. 112-178.

***Haqqında***

***Kitablarda***

**İslam Səfərli** (1923-1974) // Müasir Azərbaycan ədəbiyyatı. – Bakı : 2007. – S.358-361.

**Kənan A.** Ağ xalatlı qıza qənim kəsilənlər : İslam Səfərli // XX əsrdə repressiyaya məruz qalanlar. - Bakı : Azərnəşr, 2011. - S. 249-253.

***Dövri mətbuatda***

**Abbaslı T.** İslam Səfərli : başdan-başa şeir-sənət, Vətən-təbiət sevgili // Mədəniyyət. - 2015. - 6 noyabr. **-** № 86**.** - S. 12.

**Abbaslı T.** Şair, sabahın xeyir! : İslam Səfərli haqqında // Mədəniyyət. - 2011. - 11 fevral. - № 11. - S. 11.

**Abbaslı T.** Ürkək baxış, zərif gülüş, xoş yeriş. : şair-dramaturq İslam Səfərli haqqında // Mədəniyyət. - 2012. - 10 fevral. **- № 9**. - S. 13.

**Həbibbəyli İ.** Romantik pafosdan lirizmə : İslam Səfərli - 90 // Azərbaycan. - 2013. - 7 mart. - № 52. - S. 6.

**Həsənzadə N.** Nəğmələrdə yaşayan şair ömrü : İslam Səfərli - 85 // Xalq qəzeti. - 2008. - 5 fevral. - S. 6.

**Mərdanova S.** İslam Səfərlinin poemalarında lirik ricətlər // Azərbaycan dili və ədəbiyyat tədrisi. - 2010. - № 2(Aprel-iyun). - S. 15-21.

**Qasımov Ə.** Görkəmli şairin dramaturji yaradıcılığı : İslam Səfərli - 90 // Xalq qəzeti. - 2013. - 30 iyun. - № 140. - S. 6.

**Səfərov Ə.** İncə muğamların qanadında : İslam Səfərli - 90 // Mədəni Həyat. - 2013. - № 12. - S. 42, 50.

**Şeirə verdim mən** eşqimi : Şair İslam Səfərli haqqında // Göy qurşağı. - 2008. - № 2. - S. 12.

**Yunisli F.** Sözə doğma - musiqiyə həmdəm : İslam Səfərli - 90 // Mədəniyyət. - 2013. - 1 noyabr. - № 78. - S. 10.

**Yusifli V.** Nəğməkar şair : İslam Səfərli // Mədəni Həyat. - 2013. - № 4. - S. 76-78.

**Yusifli V.** Unudulmayan şair : İslam Səfərli - 85 // Ədəbiyyat qəzeti. - 2008. - 8 fevral. - S. 4.

# İslam Səfərli zirvəsi
**(metodik vəsait)**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:info@clb.az**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 10
Çapa imzalanmışdır:14.01.2018
Tirajı:100
Pulsuz